# COP29 çərçivəsində yerli xalqların biliklərinin iqlim böhranının həllinə töhfəsinə dair müzakirə aparılıb

COP29 çərçivəsində noyabrın 21-də "İqlim-təbiət əlaqəsinin əsasını təşkil edən yerli xalqlar və icmaların ənənəvi bilikləri" üzrə yüksəksəviyyəli dəyirmi masa keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə yerli xalqların və icmaların nümayəndələri, ekoloji ekspertlər, dövlət rəsmiləri, qeyri-hökumət təşkilatları və beynəlxalq qurumların nümayəndələri iştirak ediblər.

Müzakirələrdə diqqət əsasən yerli xalqların iqlim dəyişikliklərinə qarşı ənənəvi biliklərindən və bu biliklərin təbiətin mühafizəsi və bərpasında tətbiqindən istifadəyə yönəlib. İştirakçılar, həmçinin bu biliklərin elmi və müasir texnologiyalarla birləşdirilməsi yolu ilə iqlim böhranının həllinə töhfə verə biləcəyini vurğulayıblar.

Tədbirdə iqlim dəyişikliyi ilə mübarizədə yerli icmaların və xalqların oynadığı mühüm rolundan bəhs edilib, yerli icmaların yaşayış sahələrində biomüxtəlifliyin qorunmasında və təbii resursların dayanıqlı idarə edilməsində unikal biliklərinin olduğu diqqətə çatdırılıb. Müzakirələr zamanı vurğulanıb ki, bu biliklər qlobal səviyyədə iqlim tədbirlərində daha geniş şəkildə tanınmalı və istifadə olunmalıdır. Eyni zamanda, bu biliklərin saxlanılması və gələcək nəsillərə ötürülməsi üçün yerli icmaların hüquqlarının müdafiəsi, onların sosial və iqtisadi inkişafına dəstək verilməsi əhəmiyyətli hesab olunub.

Dəyirmi masada çıxış edənlər bu biliklərin qlobal siyasətlərin müəyyənləşdirilməsində və milli səviyyədə iqlim strategiyalarının hazırlanmasında nəzərə alınmasının zəruriliyini bildiriblər. Çıxışlarda qeyd edilib ki, yerli xalqların torpaqlarında bəşəriyyətin ən zəngin biomüxtəliflik əraziləri mövcuddur və bu ərazilər iqlim dəyişikliyinin təsirlərinə qarşı daha davamlı olma potensialına malikdir.

Tədbirin yekununda iştirakçılar arasında fikir mübadiləsi aparılıb və bir sıra tövsiyələr irəli sürülüb. Bu tövsiyələr arasında yerli xalqların biliklərinə əsaslanan iqlim siyasətlərinin inkişaf etdirilməsi, bu biliklərin elmi tədqiqatlarla birləşdirilməsi, onların beynəlxalq səviyyədə təşviqi və yerli icmalara maliyyə dəstəyinin artırılması xüsusi qeyd olunub.

Dəyirmi masa, həmçinin COP29 çərçivəsində keçirilən digər tədbirlərə və qlobal iqlim məqsədlərinə töhfə verməklə yerli xalqların və icmaların səsini daha geniş auditoriyaya çatdırmağa xidmət edib.

**AZƏRTAC**
**2024, 21 noyabr**